TÜRK DÖVLƏTLƏRİ PARLAMENT ASSAMBLEYASI

**HÜQUQ MƏSƏLƏLƏRİ VƏ BEYNƏLXALQ ƏLAQƏLƏR KOMİSSİYASI**
**ONUNCU İCLAS**
**Ankara, 9 mart 2023-cü il**

**HESABAT MƏRUZƏSİ**

# "TÜRKPA-nın 15-ci İLDÖNÜMÜ: ÜZV DÖVLƏTLƏR ARASINDA ƏMƏKDAŞLIQ"

## I. Giriş

Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) Qırğızıstanın Çolpan-Ata şəhərində keçirilən on birinci Plenar iclasında qəbul edilən Fəaliyyət Planına uyğun olaraq Hüquq Məsələləri və Beynəlxalq Əlaqələr Komissiyasının onuncu iclasının Türkiyədə keçirilməsi ilə bağlı qərar qəbil edilib və bu, təqvimə salınıb. Komissiya iclasının mövzusu isə "TÜRKPA-nın 15-ci ildönümü: üzv dövlətlər arasında əməkdaşlıq" olaraq müəyyən edilib.

Türk Dövlətləri Parlament Assambleyası (TÜRKPA) müstəqil Türk dövlətlərinin qarşılıqlı münasibətləri çərçivəsində əməkdaşlığın daha da inkişaf etdirilməsinə töhfə verən parlamentlərarası qurumdur. Bu nöqteyi-nəzərdən, TÜRKPA üzv ölkələrin parlamentləri arasında çoxşaxəli

qarşılıqlı əlaqələrin institusional təcəssümüdür. Digər parlament qurumları kimi TÜRKPA da parlament diplomatiyasının təzahürüdür. Bu gün, TÜRKPA regional problemlərin həll edilməsində, qanunvercilik bazalarının yaxınlaşıdırlmasında və regional inteqarsiyanın sürətlənməsində mühüm rol oynayır. Bunlardan əlavə, TÜRKPA-nın əsas məqsədlərinə qanunvericlik aktları və normativ sənədlər üçün təkliflər vermək, seçkilərə müşahidəçi missiyaları göndərmək, idarəetmənin təkmilləşməsinə töhfə vermək də daxildir.

Regional beynəlxalq təşkilat olmaqla yanaşı, TÜRKPA parlament diplomatiyasının beynəlxalq dəyərlərinin əks etdirilməsi nöqteyi-nəzərindən də mühüm əhəmiyyət kəsb edən qurumdur.

Bu hesabatda 15 illik tarixi dövr ərzində TÜRKPA-nın üzvü olan ölkələri arasında mövcud əməkdaşlığın dəyərləndirilməsi məqsədilə məlumatlar ümumiləşdirilib. TÜRKPA fəaliyyətlərini dörd əsas başlıq altında səciyyələndirmək olar:

1) Plenar iclaslar
2) Komissiya iclasları
3) Seçki müşahidə missiyaları
4) Türk Əməkdaşlıq Təşkilatları arasında kordinasiya fəaliyyətləri
5) Beynəlxlaq münasibətlər sahəsində fəaliyətlər

TÜRKPA-nın yaranmasından keçən 15 il ərzində qarşılıqlı münasibətlər və əməkdaşlıq çərçivəsində formalaşan təcrübə və əldə olunan nailiyyətlər üzv ölkələrin ortaq gələcəyinin təminatçısıdır. TÜRKPA ortaq müzakirə mövzularının müəyyən olunması və formalaşmış münasibətlərə əlavə dəyərlər qazandırmaq fonunda regional və beynəlxlaq parlament əməkdaşlığının səmərəliliyini və sabitliyi dəstəkləyir.

## 1. Plenar İclaslar

TÜRKPA-nın bu vaxta kimi ümumilikdə on bir Assambleya Şura iclası keçirilib. Assambleya Şurası ali idarəetmə orqanıdır və üzv ölkə nümayəndə heyətlərinin rəhbərlərinin iştirakı ilə Assambleya Şura iclasları baş tutur. Hər bir parlament nümayəndə heyətinin bir səsi var və bu səslər eyni hüquqi qüvvəyə malikdir. Bütün qərarlar ildə ən azı bir dəfə keçirilən Assambleya Şura iclaslarında yekdilliklə qəbul olunur.

Əlavə olaraq o da qeyd edilməlidir ki, Assambleya Şura iclaslarında qanunun aliliyi prinsipi çərçivəsində Türk dövlətləri arasında əlaqələrin güclənməsinə və münasibətlərin yaxşılaşdırılmasına töhfə verən şəxslərə medallar və medal sertifikatlarının verilməsi üçün təqdimatlar da keçirilir.

### a) TÜRKPA-nın 1-ci Plenar İclası. (Bakı, 29 sentyabr 2009-cu il)

Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) I Plenar İclası 29 sentyabr 2009-cu ildə Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində keçirilmişdir.

İclasda Azərbaycan Respublikası Milli Məclisinin Sədri cənab Oqtay Əsədov, Qazaxıstan Respublikası Parlamenti Məclisinin sədri cənab Ural Muhamedjanov, Qırğız Respublikası Joqorku Keneşinin sədri cənab Aydibay Taqayev, Türkiyə Böyük Millət Məclisinin sədri cənab Mehmet Ali Şahin, üzv dövlətlərin parlamentariləri və parlamentlərin aparat rəsmiləri iştirak etmişdir.

Tədbirdə TÜRKPA-nın Nizamnaməsi, qurumun katibliyinin Əsasnaməsi, həmçinin TÜRKPA-nın Baş katibi və müavinlərinin seçilməsi məsələləri ətrafında müzakirələr aparılıb. İclasda çıxış edənlər gündəlikdəki məsələlər barədə öz fikirlərini bildirərək təkliflər veriblər. Müzakirələrin yekunu olaraq TÜRKPA-nın Prosedur Qaydaları, Katibliyin Əsasnaməsi

və illik büdcəsi qəbul edilib. İclasın sonunda Bakı Bəyannaməsi də qəbul olunmuşdur.

**b) TÜRKPA-nın 2-ci Plenar İclası. (Astana, 27 - 28 aprel 2011-ci il)**

Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) II Plenar İclası 27-28 aprel 2011-ci il tarixində Qazaxıstan Respublikasının paytaxtı Astana şəhərində keçirilmişdir.

Plenar sessiya Azərbaycan, Qazaxıstan və Qırğızıstan Respublikalarının müstəqilliklərinin 20-ci ildönümünə həsr olunmuşdur.

Plenar sessiyada Azərbaycan Respublikasının Milli Məclisinin sədri cənab Oqtay Əsədov, Qazaxıstan Respublikasının Parlamenti Məclisinin sədri cənab Ural Muhamedjanov, Qazaxıstan Respublikasının Parlamenti Senatının sədri cənab Kayrat Mamin, Qırğızıstan Respublikası Joqorku Keneşinin sədri cənab Ahmatbek Keldibekov və Turkiyə Böyük Millət Məclisinin sədri cənab Mehmet Ali Şahin, eləcə də onların rəhbərlik etdikləri nümayəndə heyətləri iştirak etmişdir.

Həmçinin, İslam Konfransı Təşkilatı Parlament İttifaqının Baş katibi cənab Mahmud Erol Kılıç, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi, səfir cənab Halil Akıncı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Baş katibinin müavini cənab Serhad Varlı, TÜRKSOY-un Baş katibinin müavini cənab Fırat Purtaş da xüsusi qonaq qismində iştirak etmişlər.

Plenar iclasda Katibliyin 2011-2012-ci illər üçün nəzərdə tutulmuş büdcəsi, Assambleyanın və Katibliyin Əsasnamələrinə əlavə və dəyişikliklər, TÜRKPA-nın rəsmi bayraq və emblemi qəbul edilmişdir. Bunlardan əlavə, TÜRKPA-nın yeni dörd daimi komissiyası qurulmuşdur. Yeni Əsasnaməyə əsasən daimi komissiyaların səlahiyyətləri və fəaliyyət istiqamətləri müəyyənləşdirilmişdir.

İstanbul Sazişinə edilmiş yeni dəyişiklərlə TÜRKPA-nın rəsmi dilləri tərkibinə BMT-nin rəsmi dillərindən biri olan ingilis dili əlavə edilmiş, üzv dövlətlərin TÜRKPA-dakı nümayəndə heyətlərinin say tərkibi 7-dən 9-a çıxarılmış, Qazaxıstan Parlamenti Senatının sədri TÜRKPA Assambleya Şurasının üzvlüyünə daxil edilmişdir.

**c) TÜRKPA-nın 3-cü Plenar İclası. (Bişkek, 14-15 iyun 2012-ci il)**

Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) III Plenar İclası 14-15 iyun 2012-ci il tarixində Qırğızıstan Respublikasının paytaxtı Bişkek şəhərində keçirilmişdir.

Azərbaycan Respublikası Milli Məclisinin sədri cənab Oqtay Əsədov, Qazaxıstan Respublikası Parlamentinin sədri cənab Nurlan Niqmatulin, Qırğızıstan Respublikası Joqorku Keneşinin sədri cənab Asilbek Jeenbekov və Türkiyə Böyük Millət Məclisinin sədri cənab Cemil Çiçek, eləcə də onların rəhbərlik etdikləri nümayəndə heyətləri Plenar iclasda iştirak ediblər. Qeyd edilənlərdən başqa İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqı (İƏTPİ), Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyası (QDİƏT PA), Türk Dünyası Bələdiyyələr Birliyi (TDBB) kimi təşkilatların nümayəndələri də iclasda iştirak ediblər. TÜRKPA-da sədrlik Qazaxıstan Respublikasından Qırğızıstan Respublikasına keçmişdir.

TÜRKPA Beynəlxalq Müşahidəçilər Missiyasının Türkiyə, Qırğızıstan və Qazaxıstanda keçirilmiş prezident və parlament seçkilərinə dair yekun rəyləri dinlənilmişdir. Plenar sessiyada Katibliyin 2013-cü il üçün büdcə layihəsi də təsdiq edilmişdir. İclasın sonunda daimi komissiyaların sədr müavinləri seçilmiş və Bişkek Bəyannaməsi qəbul edilmişdir.

**d) TÜRKPA-nın 4-cü Plenar iclası (Ankara, 11-12 iyun 2013-cü il)**

Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) IV Plenar İclası 11-12 iyun 2013-ci il tarixində Türkiyə Respublikasının paytaxtı Ankara şəhərində keçirilmişdir.

Plenar Sessiya İstanbul sazişinin imzalanmasının və TÜRKPA- nın yaranmasının 5-ci ildönümünə həsr olunub.

Azərbaycan Respublikası Milli Məclisinin sədri cənab Oqtay Əsədov, Qazaxıstan Respublikası Parlamentinin sədri cənab Nurlan Niqmatulin, Qırğızıstan Respublikası Joqorku Keneşinin sədri cənab Asilbek Jeenbekov və Türkiyə Böyük Millət Məclisinin sədri cənab Cemil Çiçek, eləcə də onların rəhbərlik etdikləri nümayəndə heyətləri Plenar iclasda iştirak ediblər. TÜRKPA-nın dördüncü Plenar iclasında Macarıstan Milli Assambleyasının, eləcə də İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqı (İƏTPİ), Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ), TÜRKSOY, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyası (QDİƏT PA) və Dünya Türk Gənclər Birliyi kimi Beynəlxalq təşkilatların nümayəndələri də iştirak ediblər.

Plenar sessiyada Katibliyin 2014-cü il üçün büdcə layihəsi təsdiq edilmişdir. Növbəti dörd ildə fəalliyət göstərəcək Baş katib və onun müavinləri seçilmişdir.

**e) TÜRKPA-nın 5-ci Plenar iclası (Bakı, 12-13 iyun 2014-cü il)**

TÜRKPA-nın 5-ci Pleanr iclası 12-13 iyun 2014-cü ildə Azərbaycan Respublikasının paytaxtı Baku şəhərində keçirilmişdir.

Plenar iclasda Qazaxıstan Respublikası Parlamenti Məclisinin sədri cənab Kabibulla Jakupov, Qırğızıstan Respublikası Joqorku Keneşinin sədri cənab Asilbek Jeenbekov, Türkiyə Böyük Millət Məclisinin sədri cənab

Cemil Çiçek iştirak etmişdir. TÜRKPA-da Sədrlik Türkiyə Böyük Millət Məclisindən Azərbaycan Respublikası Milli Məclisinə keçmişdir.

Assambleya Şurası iclasında Assambleya Şurasının strukturu, daimi Komissiyalarının yenidən qurulması, "Beynəlxalq Əlaqələr və Hüquq Məsələləri", "İqtisadi Əməkdaşlıq", "Sosial, Mədəni və Humanitar Məsələlər" komissiyalarının təsis edilməsinə dair qərar qəbul etmişdir. Qeyd edilənlərdən əlavə "Ətraf Mühit və Təbii Ehtiyatlar" komissiyasının yaradılması ilə bağlı qərar qəbul edilmişdir. Plenar sessiyada Katibliyin 2015-cü il üçün büdcə layihəsi təsdiq edilmişdir. Azərbaycanda keçirilən prezident seçkisində iştirak edən Seçki Müşahidə Missiyası ilə bağlı məsələ də Plenar iclasın gündəliyinə salınmışdı.

**f) TÜRKPA-nın 6-ci Plenar iclası (Astana, 3-4 dekabr 2015-ci il)**

TÜRKPA-nın 6-ci Pleanr iclası 3-4 dekabr 2015-cü il tarixində Qazaxıstan Respublikasının paytaxtı Astana şəhərində keçirilmişdir.

Tədbirdə Azərbaycan Respublikası Milli Məclisinin sədri cənab Oqtay Əsədov, Qırğızıstan Joqorku Keneşinin Sədri cənab Asilbek Jeenbekov və Türkiyə Böyük Millət Məclisinin sədr müavini cənab Ahmet Aydın və müşahidəçi qismində Macarıstan Milli Assambleyasının sədr müavini xanım Marta Matray iştirak etmişdir.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ), TÜRKSOY, Türk Akademiyası, Qara Dəniz Iqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyası (QDIƏT PA), Türk Dünyası Mühəndislər və Memarlar Birliyi və Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT) kimi Beynəlxalq təşkilatların və qurumların ümayəndələri də TÜRKPA-nın 6-cı Plenar iclasında iştirak ediblər.

Assambleya Şurasının iclasında sədrlik Azərbaycan Respublikası Milli Məclisindən Qazaxıstan Respublikası Parlamenti Məclisinə keçmişdir.

Şuranın iclasında həmçinin ilk dəfə olaraq TÜRKPA-nın "Xidmətə görə" medalları təqdim edilmişdir. Türkdilli ölkələr arasında əməkdaşlığın möhkəmləndirilməsində xidmətlərinə görə Azərbaycan Respublikası Milli Məclisinin Sədri cənab Oqtay Əsədov, Qazaxıstan Respublikası Parlamenti Məclisinin Sədri cənab Kabibulla Jakupov, Qırğızıstan Joqorku Keneşinin Sədri cənab Asilbek Jeenbekov və Türkiyə Böyük Millət Məclisinin Sədri cənab İsmet Kahraman medalla təltif olunublar.

Assambleya Şurası və Plenar iclasın gündəliyinə TÜRKPA-nın illik fəaliyyət hesabatı, daimi komissiyaların sədr və sədr müavinlərin seçilməsi, eləcə də komissiyaların tövsiyə qərarları və hesabat məruzələrinin qəbul edilməsi, üzv ölkələrdə keçirilən prezident və parlament seçkilərinə dair TÜRKPA Beynəlxalq müşahidəçilər missiyasının məruzələri kimi məsələlər daxil edilmişdir. İclas Astana Bəyannaməsinin qəbul edilməsi ilə yekunlaşmışdır.

**g) TÜRKPA-nın 7-ci Plenar iclası (Bişkek, 8 dekabr 2017-ci il)**

TÜRKPA-nın 7-ci Plenar iclası 8 dekabr 2017-cü il tarixində Qırğızıstan Respublikasının paytaxtı Bişkek şəhərində keçirilmişdir. Plenar iclasın əsas mövzusu "Parlamentlərdə şəffaflıq: qərarların qəbul edilməsində yeni texnologiyalar" olmuşdur.

Toplantıda Qırğızıstan Joqorku Keneşinin Sədri cənab Dastanbek Jumabekov, Azərbaycan Respublikası Milli Məclisinin sədri cənab Oqtay Əsədəov, Türkiyə Böyük Millət Məclisinin sədri cənab İsmayıl Kahraman, Qazaxıstan Respublikası Parlamenti Məclisinin sədr müavini Gülmira İsimbayeva, eləcə də müşahidəçi qismində Macarıstan Milli Assambleyasının sədr müavini İştvanYakab, Özbəkistan Ali Məclisinin Qanunvericilik Palatasının sədr müavini Nəriman Umarovun başçılıq etdiyi nümayəndə heyəti iştirak edirdi. Özbəkistan Nümayəndə heyəti ilk dəfə olaraq TÜRKPA-nın Plenar sessiyasında iştirak etmişdir.

Şura toplantısı zamanı TÜRKPA-ya Sədrlik Qazaxıstan Məclisindən Qırğızıstan Joqorku Keneşinə keçmişdir.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (TDƏŞ), TÜRKSOY, MDB PAA, Türk Akademiyası, Türk dünyası Mühəndislər və Memarlar Birliyi və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyası (QDİƏT PA) nümayəndələri də toplantıda iştirak etmişdir.

Plenar iclasda Baş katib və Baş katibin müavinləri seçilmişdir. Eyni zamanda, TÜRKPA komissiyalarının sədr və sədr müavinləri də seçilmişdir. Plenar sessiya Ala-Arça Bəyannaməsinin qəbul edilməsi ilə sona çatmışdır.

**h) TÜRKPA-nın 8-ci Plenar iclası (İzmir, 20-21 noyabr 2018-ci il)**

20-21 noyabr, 2018-ci il tarixində TÜRKPA-nın səkkizinci Plenar iclası Türkiyənin İzmir şəhərində baş tutmuşdur.

Azərbaycan Respublikası Milli Məclisinin sədri cənab Oqtay Əsədov, Qazaxıstan Respublikası Parlamenti Məclisinin sədri cənab Nurlan Niqmatulin, Qırğızıstan Respublikası Joqorku Keneşinin sədri cənab Dastanbek Jumabekov, Türkiyə Böyük Millət Məclisinin Sədri, TÜRKPA-nın Fəaliyyətdə olan Sədri cənab Binali Yıdırım, eləcə də TÜRKPA-da müşahidəçi qismində Macarıstan Milli Assambleyasının spikeri cənab Lazslo Köver və Özbəkistan Respublikasının Oliy Məclisinin Qanunvericilik Palatasının Sədr müavini cənab Hatamjon Ketmonov qonaq qismində iştirak etmişdir.

Həmçinin Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (TDƏŞ), TÜRKSOY, Türk Mədəniyyəti və İrsi Fondu, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyası (QDİƏT PA), İslam Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqı (İƏT Pİ), eləcə də Türk Dünyası Mühəndislər və Memarlar Birliyi, Ahmet Yəsəvi Universiteti və Türk Gəncləri Dünya Birliyinin nümayəndələri Plenar iclasda iştirak etmişdir.

Plenar iclasda TÜRKPA-nın son komissiya iclaslarının hesabat məruzələri və tövsiyə qərarları, TÜRKPA Beynəlxalq müşahidəçi missiyalarının Türkiyədə keçirilən prezident və parlament seçkiləri və Azərbaycanda keçirilən prezident seçkilərinə dair hesabatları qəbul olmuşdur. İclasın sonunda 8-ci Plenar İclasın yekun sənədi – İzmir Bəyannaməsi qəbul edilmişdir..

**i) TÜRKPA-nın 9-cu Plenar iclası (Bakı, 18 dekabr 2019-cu il)**

TÜRKPA-nın 9-cu Plenar İclası 18 dekabr 2019-cu il tarixində Bakıda keçirilmişdir. İclasın mövzusu "Türk dünyasında parlament diplomatiyası: sülh və təhlükəsizlik naminə regional əməkdaşlığın möhkəmləndirilməsi" olmuşdur.

Azərbaycan Respublikası Milli Məclisinin sədri və TÜRKPA-nın fəaliyyətdə olan sədri cənab Oqtay Əsədov, Qazaxıstan Respublikası Parlamenti Məclisinin sədri cənab Nurlan Niqmatulin, Qırğızıstan Respublikası Joqorku Keneşinin sədri cənab Dastanbek Jumabekov, Türkiyə Böyük Millət Məclisinin spikeri cənab Mustafa Şentop, həmçinin Özbəkistan Respublikası Oliy Majlisi Senatının Spikeri xanım Tanzila Narbayeva qonaq qismində tədbirdə iştirak etmişdir. İclas parlament nümayəndə heyətlərini, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (TDƏŞ), TÜRKSOY, Beynəlxalq Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyası (QDİƏT PA), İƏT Parlament İttifaqı, MDB Parlament Assambleyası, GUAM və Türk Dünyası Qadın Platforması kimi Türk əməkdaşlıq təşkilatları və Beynəlxalq təşkilatların nümayəndələrini bir araya gətirmişdir.

İclasda TÜRKPA komissiyalarının son iclaslarının hesabat məruzələri və tövsiyə qərarları, Qazaxıstanda keçirilmiş erkən prezident seçkiləri üzrə beynəlxalq müşahidəçilər missiyasının hesabatı, Katibliyin, eləcə də Seçki Müşahidəsi Əsasnamələrinə əlavə və dəyişikliklər qəbul olunmuşdur.

Plenar iclasda “Qeyri-maddi mədəni irsin qorunması” və “Turizm haqqında” model qanun layihələri müzakirə edilərək qəbul edilmişdir. Qadın Parlamentarilər Qrupu və Gənc Parlamentarilər Qrupunun yaradılması barədə qərar qəbul edilmişdir. Tədbirin sonunda 10-cu Plenar İclasın yekun sənədi – Bakı Bəyannaməsi qəbul edilmişdir.

**J) TÜRKPA-nın 10-cu Plenar iclası (Turkistan, 28 sentyabr 2021-ci il)**

28 sentyabr 2021-ci il tarixində TÜRKPA-nın 10-cu Plenar iclası türk dünyasının mənəvi paytaxtı olan Türkistan şəhərində keçirilmişdir. İclasın mövzusu “Türk parlamentlərarası əməkdaşlığının perspektivləri” olmuşdur. Qazaxıstan Respublikası Parlamenti Məclisinin və TÜRKPA-nın fəaliyyətdə olan sədri N.Niqmatulin açılış nitqi ilə çıxış etmişdir. Plenar İclasda TÜRKPA üzv parlamentlərinin başçıları - Azərbaycan Respublikası Milli Məclisinin sədri Sahibə Qafarova, Qırğız Respublikası Joqorku Keneşinin sədri Talant Mamıtov, Türkiyə Böyük Millət Məclinin sədri Mustafa Şentop, eləcə də Macarıstan Milli Assambleyasının sədrinin birinci müavini Marta Matray müşahidəçi qismində və Özbəkistan Ali Məclisinin Qanunvericilik Palatasının sədr müavini Uluqbek İnoyatov qonaq qismində çıxış etmişdir.

Parlamentlərin nümayəndə heyətləri, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, TÜRKSOY, Beynəlxalq Türk Akademiyası, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisi, İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqı, MDB Parlamentlərarası Assambleyası, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə, Ahmet Yəsəvi Qazax-Türk Universiteti və Manas Qırğız-Türk Universiteti kimi Türk əməkdaşlıq təşkilatlarının, müşahidəçi təşkilatların və digər qurumların rəhbər və nümayəndələri plenar cilasda bir araya gəliblər.

İclasda TÜRKPA daimi komissiyalarının sədr və sədr müavinləri təsdiq olunub. Sessiya Türkistan Bəyannaməsinin qəbulu ilə başa çatmışdır.

**j) TÜRKPA-nın 11-ci plenar iclası (Çolpan-Ata, 24 iyun 2022-ci il)**

24 iyun 2022-ci il tarixində Çolpon-Ata şəhərində Qırğız Respublikasının Joqorku Keneşinin ev sahibliyində TÜRKPA-nın "Parlament diplomatiyası – etimad və tərəfdaşlığın əsası" mövzusunda 11-ci plenar iclası baş tutmuşdur.

Azərbaycan Respublikası Milli Məclisinin sədri Sahibə Qafarova, Qazaxıstan Respublikası Parlamenti Məclisinin sədri Yerlan Koşanov, Qırğız Respublikası Joqorku Keneşinin sədri Talant Mamıtov, Türkiyə Böyük Millət Məclinin Sədri Mustafa Şentop Plenar iclasda iştirak ediblər. Şura toplantısı zamanı TÜRKPA-ya sədrlik Qazaxıstan Məclisindən Qırğızıstan Joqorku Keneşinə keçmişdir. Assambleya Şura iclası zamanı Türkdilli Ölkələrin Parlament Assambleyası (TÜRKPA) adı Türk Dövlətləri Parlament Assambleyası (TÜRKPA) olaraq dəyişdirilib. 12-ci Plenar iclasın 27-29 aprel 2023-cü il tarixində İstanbulda keçirilməsi ilə bağlı qərar qəbul edilib. Sessiyanın sonunda Çolpan-Ata Bəyannaməsi qəbul edilib.

**2) Komissiya iclasları**

TÜRKPA-da müvafiq sahələr üzrə ixtisaslaşmış dörd daimi komissiya fəaliyət göstərir. İxtisaslaşmış komissiyalar 2011-ci ilin ikinci yarısında fəaliyyətə başlayıb. Komissiyalar tərəfindən təqdim olunan ilk hesabatlar 3-cü Plenar iclasın gündəliyinə salınıb.

Komissiyalar müvafiq sahələr ilə bağlı məsələləri müzakirə edir, hesabat və tövsiyə qərarları formasında sənədlər hazırlayır və bunları Plenar iclasa təqdim edir.

### 2.1 Hüquq Məsələləri və Beynəlxalq Əlaqələr Komissiyası

Hüquq Məsələləri və Beynəlxalq Əlaqələr Komissiyasının ilk iclası 19-21 dekabr 2011-ci il tarixində Ankarada keçirilib. İclasda "TÜRKPA üzv

dövlətlərinin Parlamentlərinin konstitusiya sistemində vəzifə və öhdəlikləri və millət vəkillərinin rolu” mövzusu ilə bağlı hesabat və tövsiyə qərarı müzakirəyə çıxarılmışdır.

Hüquq Məsələləri və Beynəlxalq Əlaqələr Komissiyasının ikinci iclası 4-7 noyabr 2012-ci il tarixləri arasında Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində keçirilmişdir. İclasda “TÜRKPA üzv dövlətləri parlamentlərinin reqlamentləri və millət vəkillərinin səlahiyyətləri” və “TÜRKPA üzv ölkələri arasında qanunvericilik məsələləri üzrə əməkdaşlıq” mövzuları müzakirə olunmuşdur. İclasdan qeyd edilən mövzular ilə bağlı hesabatın və tövsiyə qərarının hazırlanması ilə bağlı fikir alış-verişi həyata keçirilmişdir.

Hüquq Məsələləri və Beynəlxalq Əlaqələr Komissiyasının üçüncü iclası 28 aprel 2014-cü il tarixində Astanada keçirilib. İclasa komissiyanın sədr müavini və Qazaxıstan Respublikası Parlamenti Məclisinin üzvü cənab Nurlan Abdirov sədrlik etmişdir. Millət vəkilləri, mütəxəssislər, TÜRKPA üzvü olan ölkələrinin diplomatik missiyalarının nümayəndələri iclasda iştirak ediblər. Komissiyanın iclasındandan öncə məsələ ilə bağlı fikir mübadiləsi və müzakirələr aparmaq məqsədilə üzv ölkələrdən olan ekspertlərin məsləhətləşmələri keçirilmişdir.

TÜRKPA-nın Hüquq Məsələləri və Beynəlxalq Əlaqələr Komissiyasının dördüncü iclası 29 aprel 2015-ci ildə Bişkek şəhərində keçirilmişdir. Qırğızıstan parlamentində keçirilən iclasda millət vəkilləri ilə yanaşı Azərbaycan, Qazaxıstan və Türkiyənin Qırğızıstan Respublikasındakı səfirləri, eləcə də maraqlı tərəflər iştirak ediblər. TÜRKPA-ya üzv ölkələrdə seçkilər, seçki sistemləri, seçki müşahidə fəaliyyətləri və bunlar ilə bağlı hesabat məruzəsi və tövsiyə qərarları Hüquq Məsələləri və Beynəlxalq Əlaqələr sədri, Türkiyə Böyük Millət Məclisinin üzvü cənab Haluk İpekin sədrliyi ilə keçirilən iclasın gündəliyində duran əsas müzakirə mövzuları idi.

TÜRKPA-nın Hüquq Məsələləri və Beynəlxalq Əlaqələr komissiyasının beşinci iclası 17 may 2016-cı il tarixində Ankarada keçirilmişdir. İclasa TBMM üzvü və komissiyanın sədri cənab Haluk İpek sədrlik etmişdir. İclasda Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyədən olan parlament üzvləri və ekspertlər iştirak etmişdir. İclasın gündəliyindəki əsas məsələ olan "Kibercinayətkarlığa qarşı mübarizə: Üzv Ölkələr Arasında Hüquqi Çərçivənin və Əməkdaşlığın İnkişaf Etdirilməsi" mövzusu geniş müzakirə edilmişdir. Bundan əlavə, TÜRKPA-nın maliyyə sənədlərinin, "Göstərilən xidmətlərə görə" təqdim olunan medalın Əsasnaməsinin və 18 mart 2016-cı il tarixində Ankarada keçirilmiş qanunvericiliyin uyğunlaşdırılmasına dair ikinci iclasın nəticələri müzakirə edilmişdir.

TÜRKPA-nın Hüquq Məsələləri və Beynəlxalq Əlaqələr komissiyasının altıncı iclası 31 oktyabr 2018-ci ildə Bakı çəhərində keçirilib. İclasda Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyədən olan millət vəkilləri və ekspertlər iştirak etmişdir. İclas gündəliyinin əsas maddəsi "TÜRKPA-ya üzv dövlətlərinin anti-terrorizm qanunvericilikləri üzrə ortaq mövqeyin formalaşdırılması" olmuşdur.

TÜRKPA-nın Hüquq Məsələləri və Beynəlxalq Əlaqələr Komissiyasının yeddinci iclası 1 mart, 2019-cu il tarixində, Qazaxıstan Respublikası Parlament Məclisinin ev sahibliyində Astanada keçirilmişdir. İclasda üzv ölkələrdən olan parlamentarilər və ekspertlər, üzv ölkələrin müvafiq nazirliklərinin nümayəndələri, eləcə də Beynəlxalq Türk Akademiyası və Ahmet Yəsəvi Beynəlxalq Qazax-Türk Universiteti kimi qurumlardan olan qonaqlar bir araya gəliblər. İclas gündəliyinin əsas maddəsi "TÜRKPA-ya üzv ölkələrdə ali təhsildə ekvivalentlik proseslərinin problemləri" olmuşdur.

TÜRKPA-nın Hüquq Məsələləri və Beynəlxalq Əlaqələr Komissiyasının səkkizinci iclası 2021-ci ilin 20 sentyabr tarixində virtual formatda keçirilmişdir. İclasda komissiya üzvləri və Katibliyin nümayəndələri iştirak ediblər. İclasa komissiyanın sədr müavini, Qazaxıstan Parlamenti

Məclisinin üzvü Sauıtbek Abdraxmanov sədrlik edib. İştirakçılar "TÜRKPA üzv ölkələri arasında turizmin inkişafı: COVID-19 pandemiyasının təsiri və gələcək perspektivlər" mövzusunda fikir mübadiləsi aparıblar.

TÜRKPA-nın Hüquq Məsələləri və Beynəlxalq Əlaqələr Komissiyasının doqquzuncu iclası 9 iyun 2002-ci ildə virtual formatda keçirilib. İclasda əsas müzakirə mövzusu "Xarici siyasət əməkdaşlığında parlamentlərin rolu" olub. İclasa TBMM üzvü və komissiyanın sədri cənab Erol Kaya sədrlik etmişdir. İclasda komissiya üzvləri və Katibliyin nümayəndələri iştirak ediblər. Komissiyanın sədr müavini və Qazaxıstan Respublikası parlamentinin nümayənədsi cənab Sauitbek Abdrahmanov hesabat və tövsiyə qərarını təqdim edib. Tqədim oluna sənədlər yekdilliklə qəbul olunub.

## 2.2. Sosial, Mədəni və Humanitar Məsələlər Komissiyası

TÜRKPA-nın Sosial, Mədəni və Humanitar Məsələlər Komissiyasının birinci iclası 24-25 noyabr 2011-ci ildə Astanada keçirilmişdir. İclasda Bilge Qorqud proqramı üzrə hesabat və təkliflər, türkdilli xalqlar arasında sosial, mədəni və humanitar əlaqələrin yeni mərhələsi müzakirə olunmuşdur.

Sosial, Mədəni və Humanitar Məsələlər Komissiyasının ikinci iclası 5 aprel 2013-cü il tarixində Ankarada keçirilib. İclasda "Ortaq Türk Terminologiya Fondunun yaradılmasına dair əsas məsələlər" mövzusu ilə bağlı hesabat məruzəsi və tövsiyə qərarı müzakirəyə cəlb edilmişıdir.

TÜRKPA-nın Sosial, Mədəni və Humanitar Məsələlər Komissiyasının üçüncü iclası 15 aprel 2014-cü ildə Bişkekdə keçirilib. İclasda türk dövlətləri arasında əlaqələrin gücləndirilməsi məqsədilə tərcümə fəaliyyətlərinin təşkil edilməsi, xüsusi sözlərdən istifadənin əhəmiyyəti və "Türk Dilləri Gününün" təsis edilməsi kimi məsələlər müzakirə olunub.

TÜRKPA-nın Sosial, Mədəni və Humanitar Məsələlər Komissiyasının dördüncü iclası 2 dekabr 2014-cü il tarixində Bakı şəhərində keçirilib. Komissiyanın sədr müavini, Azərbaycan Respublikası Parlamentinin üzvü xanım Sevinc Hüseynovanın sədrliyi ilə keçirilən iclasda əsas müzakirə mövzusu TÜRKPA-ya üzv olan ölkələr arasında məlumat mübadiləsinin geniş vüsət alması üçün səylərin artırılması olub.

Sosial, Mədəni və Humanitar Məsələlər Komissiyasının beçinci iclası 24 may 2016-cı il tarixində Astana şəhərində baş tutub. Qırğızıstan Parlamentinin millət vəkili və komissiyanın sədri cənab Sadık Şer-Niyazın rəhbərlik etdiyi iclasda üzv ölkələrin millət vəkilləri, eləcə də Türk Şurası və TÜRKSOY-un nümayəndələri iştirak etmişdir.

TÜRKPA-nın Sosial, Mədəni və Humanitar Məsələlər Komissiyasının altıncı iclası 14 sentyabr 2018-ci il tarixində komissiya sədri və Qırğızıstan Parlamentinin üzvü cənab Sadık Şer-Niyazın sədrliyi ilə Bişkekdə keçirilmişdir. Komissiya iclasından öncə Türk Kino Günləri açılış mərasimi, eləcə də ekspertlər, Mədəniyyət Nazirliklərinin nümayəndələri, film rejissorları, Milli Film Studiyalarının nümayəndələri, animatorlar və film analitiklərinin seminarı baş tutmuşdur. İclas gündəliyinin əsas maddəsi "Türkdilli ölkələrdə film və animasiya Türk mədəni irsinin hissələri kimi: qanunvericilik və praktiki aspektlər" mövzusuna həsr edilmişdir.

Sosial, Mədəni və Humanitar Məsələlər Komissiyasının yeddinci iclası 16 may 2019-cu ildə Ankarada keçirilmişdir. İclas gündəliyinin əsas mövzusu “BMT-nin Dayanıqlı İnkişaf Hədəfləri çərçivəsində gender məsələləri: TÜRKPA üzvü ölkələrdə müasir ailələ dəyərləri” olmuşdur.

Sosial, Mədəni və Humanitar Məsələlər Komissiyasının səkkizinci iclası parlamentarilərin və katiblik nümayəndələrinin iştirakı ilə 20 sentyabr 2021-ci il tarixində virtual formatda keçirilmişdir. Sədrlik komissiyanın sədr müavini, Azərbaycan Respublikası Milli Məclisinin üzvü Nizami Cəfərov tərəfindən həyata keçirilmişdir. İclasın əsas müzakirə mövzusu

"Pandemiya dövründə TÜRKPA üzvü ölkələrin kənd yerlərində sosial vəziyyət" mövzusu olmuşdur.

Sosial, Mədəni və Humanitar Məsələlər Komissiyasının doqquzuncu iclası 22 aprel, 2022-ci il tarixində Bakıda keçirilmişdir. İclasın gündəliyindəki əsas məsələ "TÜRKPA-nın üzv ölkələrində sosial sahibkarlığın dəstəklənməsi" olmuşdur.

## 2.3. İqtisadi Əməkdaşlıq Komissiyası

İqtisadi Əməkdaşlıq Komissiyasının birinci iclası 27-28 oktyabr 2011-ci il tarixində Bişkek şəhərində keçirilib. Komissiyada "TÜRKPA-ya üzv olan ölkələr arasında iqtisadi və ticarət əməkdaşlığının perspektivləri" mövzusu müzakirə olunmuş, alınan qərarlar Plenar iclasa təqdim olunmaq üçün yekdilliklə qəbul olunmuşdur.

5 aprel 2013-cü il tarixində Ankara şəhərində İqtisadi Əməkdaşlıq Komissiyasının ikinci iclası baş tutmuşdur. Türkiyə Böyük Millət Məclisində keçirilmiş iclasda "TÜRKPA-ya üzv olan ölkələrdə investisiya mühitinin yaxşılaşdırılması" mövzusu ilə bağlı hesabat məruzəsi və tövsiyə qərarı müzakirəyə çıxarılmışdır.

11 fevral 2014-cü il tarixində Azərbaycan Respublikasının Milli Məclisində İqtisadi Əməkdaşlıq Komissiyasının üçüncü iclası keçirilmişdir. İclasda Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyədən olan millət vəkilləri, Türk Əməkdaşlıq Şurasının, Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi (TRACECA) Komissiyasının nümayəndələri iştirak ediblər. Qeyd edilməlidir ki, iclasdan əvvəl, Nəqliyyat Nazirliyi, parlament komissiyası nümayəndələrinin iştirakı ilə ekspert qrupunun görüşü baş tutub.

10 noyabr 2014-cü il tarixində Qazaxıstan Respublikası Parlamenti Məclisində TÜRKPA-nın İqtisadi Əməkdaşlıq Komissiyasının dördüncü toplantısı keçirilmişdir. İclasa sədrlik komissiyanın sədri və Qazaxıstan Parlamentinin millət vəkili cənab Serikyan Kanayev tərəfindən həyata

keçirilmişdir. Toplantının gündəliyinin əsas mövzusu “Türk dövlətləri arasında enerji sektorunun inkişafı sahəsində əməkdaşlıq” olmuşdur.

İqtisadi Əməkdaşlıq Komissiyasının beşinci iclası TÜRKPA-nın yeddinci Plenar iclası çərçivəsində 7 dekabr 2017-ci il tarixində Bişkek şəhərində keçirilib. İclasın gündəliyində duran əsas məsələ "Üzv ölkələrdə iqtisadiyyatın şaxələndirilməsi" olmuşdur.

İqtisadi Əməkdaşlıq Komissiyasının altıncı iclası 27-28 sentyabr 2018-ci il tarixində Ankarada keçirilib. İclasda "TÜRKPA üzvü ölkələrdə innovativ sahibkarlıq perspektivləri" müzakirəyə cəlb olunub.

8 aprel 2019-cu il tarixində Bakı şəhərində İqtisadi Əməkdaşlıq Komissiyasının yeddinci iclası keçirilmişdir. İclas gündəliyinin əsas maddəsi "Ortaq texnologiyanın inkişafı: TÜRKPA üzvü ölkələrin elm və iş icmaları arasında hərtərəfli əməkdaşlıq" olmuşdur.

İqtisadi Əməkdaşlıq Komissiyasının səkkizinci iclası 20 sentyabr 2021-ci il tarixində virtual formatda keçirilmişdir. İclasın əsas mövzusu "Yaşıl iqtisadiyyat", innovasiya və rəqəmsallaşma üçün qanunvericilik dəstəyi təcrübəsi" olmuşdur.

İqtisadi Əməkdaşlıq Komissiyasının doqquzuncu iclası 20 may 2022-ci il tarixində Nur-Sultan şəhərində keçirilib. İclasın əsas mövzusu “Post-pandemiya dövründə iqtisadiyyat: kiçik və orta biznezlərə dövlət dəstəyi” olmuşdur. Müzakirələrdə pandemiya və post-pandemiya dövründə kiçik və orta biznezlərə dəstək üçün görülən tədbirlər müzakirə olunmuşdur.

### 2.4. Ətraf Mühit, Təbii Ehtiyatlar və Sağlamlığın Qorunması Komissiyası

Ətraf Mühit, Təbii Ehtiyatlar və Sağlamlığın Qorunması Komissiyasının ilk iclası 2 aprel 2015-ci il tarixində Ankarada Azərbaycan Respublikası Milli Məclisinin üzvü akademik cənab Əhliman Əmiraslanovun sədrliyi ilə keçirilmişdir. İclas gündəliyinin əsas mövzusu Türkdilli ölkələrdə səhralaşmaya qarşı mübarizə olmuşdur.

Ətraf Mühit, Təbii Ehtiyatlar və Sağlamlığın Qorunması Komissiyasının ikinci iclası 24 noyabr 2016-cı il tarixində bakıda keçirilmişdir. “Qlobal iqlim dəyişiklikləri: TÜRKPA üzvü ölkələr üçün səbəb və nəticələr” adlı mövzu iclasda müzakirə olunan əsas mövzu olmuşdur.

22 iyun 2017-ci il tarixində Astana şəhərində Ətraf Mühit, Təbii Ehtiyatlar və Sağlamlığın Qorunması Komissiyasının üçüncü iclası baş tutmuşdur. Üçüncü iclasın gündəliyinin əsas maddəsi “Üzv ölkələrdə alternativ enerji mənbələrinin inkişafı” olmuşdur. İclas bərpa olunan enerji mənbələrinin inkişafına həsr olunmuş EXPO-2017 Astana Beynəlxalq İxtisaslaşdırılmış Sərgisinə həsr olunmuşdur.

Ətraf Mühit, Təbii Ehtiyatlar və Sağlamlığın Qorunması Komissiyasının dördüncü iclası 14 sentyabr 2018-ci il tarixində Bişkekdə keçirilmişdir. "Geni dəyişdirilmiş orqanizmlərin yayılmasının təsiri" mövzusu iclasın əsas müzakirə mövzusu olmuşdur.

TÜRKPA-nın Ətraf Mühit, Təbii Ehtiyatlar və Sağlamlığın Qorunması Komissiyasının beçinci iclası 30 may 2019-cu il tarixində Bişkek şəhərində keçirilmişdir. İclasın gündəliyində duran əsas mövzu “Təbii ehtiyatların ekoloji cəhətdən səmərəli istifadəsi: hüquqi dəstək” olmuşdur.

Ətraf Mühit, Təbii Ehtiyatlar və Sağlamlığın Qorunması Komissiyasının altıncı iclası 20 sentyabr 2021-ci il tarixində onlayn formatda baş tutmuşdur. İclasa komissiyanın və Azərbaycan Respublikası Milli Məclisinin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov sədrlik etmişdir. "Su ehtiyatları və torpaqların idarə edilməsi" mövzusunda müzakirələr aparılmışdır.

11 may 2022-ci il tarixində Ətraf Mühit, Təbii Ehtiyatlar və Sağlamlığın Qorunması Komissiyasının yeddinci iclası keçirilmişdir. İclasda müzakirə olunan əsas mövzy “TÜRKPA üzvü ölkələrində səhiyyə sistemlərinin uyğunlaşdırılması” olmuşdur.

## 3. Seçki müşahidə missiyaları

2010-cu ildən etibarən TÜRKPA-nın Seçki Müşahidə Missiyaları üzv ölkələr olan Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyədə, eləcə də qardaş Özbəkistanda prezident, parlament seçkilərini və referendumları müşahidə etmişdir.

Seçki missiyası TÜRKPA-nın əsas fəaliyyət istiqamətlərindən biridir. Missiyanın tərkibinə TÜRKPA üzv ölkələrinin parlamentlərinin üzvləri, eləcə də TÜRKPA Katibliyinin nümayəndələri daxildir.

TÜRKPA müşahidəçiləri Mərkəzi Seçki Komissiyalarının yüksək vəzifəli rəsmiləri və hökumət rəsmiləri ilə görüşlər keçirir. TÜRKPA missiyası seçki prosesini bütün mərhələlərdə müşahidə edir - seçki məntəqələrini ziyarət edir, hazırlıq prosesini qiymətləndirir, seçicilər və seçki məntəqəsi nümayəndələri ilə söhbət edir, rəsmilər, eləcə də siyasi və ictimai təşkilatların nümayəndələri ilə görüşür.

Müşahidəçilər 2005-ci ildə Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Müşahidəçilər üçün Davranış Kodeksində təsdiq olunmuş obyektivlik, ədalət, şəffaflıq və qərəzsizlik prinsiplərinə Avropa Şurası Venesiya Komissiyasının tövsiyələrinə və digər beynəlxalq hüquqi normalara riayət edir.

Müşahidə missiyaları seçki və referendumların nəticələrinə dair mətbuat konfransları keçirməklə ictimaiyyətə nəticələr ilə bağlı məlumat verir. Bu günə kimi TÜRKPA Seçki missiyasının müşahidə apardığı seçkilər aşağıdakılardır:

i. Qazaxıstan Respublikasında keçirilən erkən prezident seçkiləri (20 noyabr 2022-ci il)
ii. Qırğızıstan Respublikasında keçirilən parlament seçkiləri ( 28 noyabr 2021-ci il)
iii. Özbəkistan Respublikasında keçirilən prezident seçkiləri (24 oktyabr 2021-ci il)

iv. Qırğızıstan Respublikasında konstitusiyaya dəyişikliklərlə bağlı keçirilən referendum (11 aprel 2021-ci il)
v. Qırğızıstan Respublikasında prezident seçkiləri və ölkənin idarəçilik formasına dair referendum (10 yanvar 2021-ci il)
vi. Qazaxıstan Respublikasının Parlamenti Məclisinə keçirilən seçkilər (10 yanvar 2021-ci il)
vii. Azərbaycan Respublikasında keçirilən parlament seçkiləri (9 fevral 2020-ci il)
viii. Qazaxıstan Respublikasında keçirilən erkən prezident seçkiləri (9 yanvar 2019-cu il)
ix. Türkiyə Respublikasında keçirilən prezident və parlament seçkiləri (24 iyun 2018-ci il)
x. Azərbaycan Respublikasında keçirilən erkən prezident seçkiləri (20 aprel 2018-ci il)
xi. Qırğızıstan Respublikasında keçirilən prezident seçkiləri (15 oktyabr 2017-ci il)
xii. Qazaxıstan Respublikasının keçirilən Parlament Senatına seçkilər (28 iyun 2017-ci il)
xiii. Qazaxıstan Respublikasının erkən parlament seçkiləri və məclis seçkiləri (20 mart 2016-cı il)
xiv. Türkiyə Respublikasında keçirilən ümimi seçkilər (1 noyabr 2015-ci il)
xv. Azərbaycan Respublikasında keçirilən parlament seçkiləri (1 noyabr 2015-ci il)
xvi. Qırğızıstan Respublikasında keçirilən parlament seçkiləri (4 oktyabr 2015-ci il)
xvii. Türkiyə Respublikasında keçirilən ümimi seçkilər (7 iyun 2015-ci il)
xviii. Qazaxıstan Respublikasında keçirilən erkən prezident seçkiləri (26 aprel 2015)

xix. Azərbaycan Respublikasında keçirilən prezident seçkiləri (9 oktyabr 2013-cü il)

xx. Qazaxıstan Respublikasında keçirilən erkən parlament seçkiləri (15 yanvar 2012-ci il)

xxi. Türkiyə Respublikasında keçirilən ümimi seçkilər (12 iyun 2011-ci il)

xxii. Qırğızıstan Respublikasında keçirilən prezident seçkiləri (30 oktyabr 2011-ci il)

xxiii. Qazaxıstan Respublikasında keçirilən erkən president seçkiləri (3 aprel 2011-ci il)

xxiv. Azərbaycan Respublikasında keçirilən parlament seçkiləri (7 noyabr 2010-cu il)

xxv. Qırğızıstan Respublikasında Joqorku Keneşinə keçirilən seçkilər (10 noyabr 2010-cu il)

## 4. Türk Əməkdaşlıq Təşkilatları arasında kordinasiya fəaliyyətləri

Türk Dövlətləri Parlament Assambleyasının fəaliyyət istiqamətlərindən biri də üzv ölkələr arasında siyasi dialoqun inkişafına töhfə verməkdir. Bu nöqteyi-nəzərdən, TÜRKPA Türk dünyasında siyasi dialoqun bərqərar edilməsi üçün müvafiq olan bütün institisional mexanizmləri dəstəkləyir.

TÜRKPA Türk dövləri arasında iqtisadi, siyasi və mədəni əməkdaşlıq modelinin yaradılması üçün Türk Dövlətləri Təşkilatı, TÜRKSOY, Beynəlxalq Türk Akademiyası, Türk Mədəniyyət və Miras Fondu ilə sıx əməkdaşlıq edir.

TÜRKPA Türk əməkdaşlıq təşkilatları ilə münasibətlərə xüsusi əhəmiyyət verir. Bu müstəvidə əməkdaşlıq ilə bağlı gündəlikdə duran məsələlərin müvafiq icarısını təmin etmək məqsədilə TÜRKPA-nın Baş katibi Türk Əməkdaşlıq Təşkilatları Koordinasiya Komitəsi iclaslarında iştirak edir.

TÜRKPA Türk Dövlətləri Təşkilatı, TÜRKSOY, Beynəlxalq Türk Akademiyası, Türk Mədəniyyət və Miras Fondu kimi oxşar təşkilatlar ilə yanaşı Türk Dünyası Bələdiyyələr Birliyi, Türk Dünyası Mühəndislər və Memarlar Birliyi, Əhməd Yəsəvi Universiteti, Qırğız-Türkiyə Manas Universiteti ilə də əməkdaşlıq edir.

## 5. Beynəlxalq əməkdaşlıq sahəsində fəaliyyətlər

TÜRKPA regionda və beynəlxalq arenada sülhün, etimadın və dostluq əlaqələrinin güclənməsinə töhfə vermək üçün parlament diplomatiyasını istifadə edir. Yarandığı gündən etibarən regional və beynəlxalq əlaqələrin inkişaf etdirilməsi TÜRKPA-nın əsas fəaliyyət istiqamətlərindən biri olub.

Strategiya sənədində də qeyd edildiyi kimi TÜRKPA beynəlxalq əməkdaşlığın inkişifini diqqət mərkəzində saxlayır və aparıcı beynəlxalq təşkilatlarla konstruktiv əməkdaşlıq etmək üçün imkanları dəyərləndirir.

TÜRKPA, eyni zamanda, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT), Avropa Parlamenti, Müstəqil Dövlətlər Birliyi Parlamentlərarası Assambleyası (MDB PA), İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqı (İƏT Pİ) kimi regional təşkilatlarla münasibətlərdə parlamentlərarası diplomatiyanı tətbiq edir. Macarıstan Milli Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqı (İƏT Pİ), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyası (QDİƏT PA) TÜRKPA-da müşahidəçi statusunda sahibdir. Bu, TÜRKPA-nın parlament assosiasiyaları arasında nüfuzunun möhkəmlənməsinə təkan verir.

23 fevral 2023-cü il tarixində TÜRKPA ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi arasında hər iki təşkilat arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanmışdır.

TÜRKPA İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqı (İƏT Pİ), Parlamentlərarası İttifaq, Parlament Baş katibləri Assosiasiyası, Qara

Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyası (QDİƏT PA), Asiya Parlament Assambleyası (APA) və Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirədə müşahidəçi statusuna malikdir.

Qeyd edilməlidir ki, son on beş ildə eyni hədəflərə nail olmaq məqsədilə TÜRKPA bir çox Beynəlxlaq təşkilatlar ilə ortaq fəaliyyətlər icra edib.

## II. Nəticə

Parlament Assambleyaları BMT sistemi çərçivəsində beynəlxalq icmaları bir araya gətirmək üçün xüsusi rola malikdir. Assambleyaların belə əhəmiyyətli olması vətəndaşların iradəsinin təcəssümü olan parlamentlər ilə birbaşa əlaqəlidir. Bu mənada, TÜRKPA vətəndaşların təmsilçisi olma gücündən istifadə etməklə dünyanın hər yerində sülhün, sabitliyin və inkişafın bərqərar edilməsinə töhfə vermək məqsədilə qlobal müzakirələrdə iştirak edir.

Dörd ölkə parlamentinin birliyi olaraq TÜRKPA bu günə kimi üzv ölkələrin iqtisadi, sosial-mədəni və qanunvericilik potensialının güclənməsi məqsədilə ciddi addımlar atıb. TÜRKPA çoxşaxəli siyasi əməkdaşlıq mexanızmini gücləndirmək üçün ciddi səylər göstərir.

Türk dövlətləri arasinda əməkdaşlıq müstəvisində müəyyən olunan ortaq hədəflərərə, eləcə də sülhə, təhlükəsizliyə, siyasi sabitliyə nail olmaq prosesində uğur qazanmaq üçün üzv ölkələrin parlamentləri və hökümətləri TÜRKPA regionunda hər bir sahədə əməkdaşlığın geniş vüsət alaması məqsədilə bütün imkanları səfərbər etməlidir.

Heç şübhə yoxdur ki, üzv ölkələr arasında parlament səviyyəsində əməkdaşlq regiondakı fəaliyyətlərin səmərəliliyinə müsbət təsir edir. Eyni zamanda bu ölkələrin hüquqi və normativ sənədələrinin uyğunlaşdırılması inteqarsiya prosesi üçün ciddi əsas yaradır. Bu sahədə əldə olunan nailiyyətlər üzv ölkələrin gələcəklə bağlı ortaq hədəflərinin əks olunduğu “Türk Dünyası 2040 Hədəfləri”nin yerinə yetirilməsi istiqamətində

Assambleyanın digər türk Əməkdaşlıq Təşkilatları ilə münasibətlərini daha da yüksək səviyyəyə çatdırması üçün stimul yaratmalıdır.

Nüfuzlu beynəlxalq tədbirlərdə TÜRKPA üzvləri həmişə bir-birlərinə dəstək verirlər və ortaq maraqlara xidmət edən qərarlar qəbul edirlər. Bu baxımdan, aparıcı Beynəlxalq təşkilatlarda dörd ölkənin nümayəndə heyətlərinin mütəmadi görüşləri ortaq maraqların dəstəklənməsi üçün səmərəli konsultasiya mexanizmi hesab edilməlidir.

Parlament səviyyəsində üzv ölkələr arasında xüsusi əməkdaşlıq modeli olan TÜRKPA parlament diplomatiyasının inkişafında, siyasi, iqtisadi, social-mədəni sahələrdə münasibətlərin yaxşılaşdırılmasında xüsusi rol oynayır.